# ELAN

## Hörmətli həmkarlar!

Ümummilli lider Heydər Əliyevin yaratdığı ali məktəblərdən biri olan **Naxçıvan Müəllimlər İnstitutu 12 may 2023-cü il tarixdə** Naxçıvan şəhərində müasir Azərbaycanın qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş **"Heydər Əliyev və Azərbaycanda ali təhsil" mövzusunda Respublika elmi konfransının** keçiriləcəyini elan edir. Konfransın keçirilməsində əsas məqsəd ulu öndər Heydər Əliyev tərəfindən ölkəmizdə əsası qoyulmuş ali təhsil siyasətinin məqsədi, mahiyyəti, məzmunu, ali təhsil müəssisələrin tarixi inkişaf yolları, bu gününü və perspektivlərini elmi cəhətdən hərtərəfli təhlil etmək, ölkəmizin ali təhsil təşkilatçıları və akademik heyət təmsilçilərini **hibrid (əyani və videobağlantı) formatda** bir araya gətirmək, onların elmi fikir və tezislərini ali təhsil tədqiqatçıları ilə bölüşməsinə və müzakirəsinə şərait yaratmaqdan ibarətdir.

Konfransın **əsas müzakirə istiqamətləri** aşağıdakılardır:

1. Heydər Əliyev və Azərbaycan təhsili
2. Heydər Əliyev ölkəmizdə ali təhsil siyasətinin banisi kimi
3. Müstəqillik illərində ali təhsil: uğurlar və çağırışlar
4. Ali təhsilin məzmunu: dünya təcrübəsi və Azərbaycan
5. Ali təhsil və elm: ənənələr və yeniliklər
6. Ali təhsildə fənlərin tədrisi problemləri
7. Ali təhsil müəssisələrinin digər fəaliyyət istiqamətlərinin aktual məsələləri

Konfransın işində ***ali məktəblərin rəhbər və professor-müəllim heyətləri, elmi-tədqiqat müəssisələrinin əməkdaşları, doktorant (dissertant) və magistrantlar, bütün ali təhsil tədqiqatçıları*** iştirak edə bilərlər.

Konfrans materiallarının ayrıca toplu şəklində ənənəvi və elektron nəşrləri, iştirakçılara sertifikat təqdim edilməsi nəzərdə tutulur. Konfransın proqramı, iş qaydası və videobağlantı ünvanı əlavə elan ediləcəkdir.

Konfransin işçi dilləri – **Azərbaycan, ingilis və rus.**

Konfransda iştirak etmək və məqaləsini/tezisini dərc etdirmək istəyən tədqiqatçılar **21 aprel 2023-cü il** tarixədək materiallarını ***elmihisse@nmi.edu.az*** elektron ünvanına ***"Heydər Əliyev-100" Naxçıvan elmi konfransı üçün"*** qeydi ilə göndərə və ya elektron daşıyıcılarda Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə (otaq № 209) təqdim edə bilərlər. Tədqiqatçılardan 1) **iştirakçı anketinin təqdim olunması** və 2) **məqalə/tezisin tərtibinə dair** aşağıdakı tələblərin gözlənilməsi xahiş olunur:

- A4 formatı, Word redaktoru, Times New Roman şrifti, 12 Pt;
- səhifənin parametrləri - hər tərəfdən 2 sm;
- materialın başlığı tünd, böyük hərflərlə ortada;
- müəllifin adı və soyadı, işlədiyi (və ya təhsil aldığı) müəssisənin adı, elmi dərəcəsi və elmi adı (varsa), elektron ünvanı (gənc tədqiqatçılar üçün əlavə olaraq, elmi rəhbərinin adı və soyadı, elmi dərəcəsi və elmi adı) sağ tərəfdən;
- sətirlərarası interval - 1;
- istinadlar mətnin içində [5, 124] şəklində;
- ədəbiyyat siyahısı materialın sonunda;
- xülasə: **məqalə** üçün - yazıldığı dildən başqa 1 xarici dildə (50-60 söz); **tezis** üçün - yazıldığı dildən başqa 1 xarici dildə (30-40 söz);
- açar sözlər – 4/5 söz və ya söz birləşməsi;
- materialların həcmi: **məqalə** üçün 3-7 səhifə (*Xülasə, Açar sözlər* və *Ədəbiyyat siyahısı* daxil olmaqla), **tezis** üçün 2 səhifə (*Xülasə* və *Açar sözlər* daxil olmaqla).

**KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ**
**Naxçıvan şəhəri, Heydər Əliyev pr.2.**
**Naxçıvan Müəllimlər İnstitutu**
**e-mail:*elmihisse@nmi.edu.az***
**əlaqə: (036) 544-04-29**
**051-379-99-00**

## İştirakçının anketi

(Word mətn redaktorunda yazılmalı və materiala mütləq qoşulmalıdır)

| | | |
|---|---|---|
| 1. | Tədqiqatçı (məruzəçi)<br>(ad, soyad, elmi dərəcə və elmi ad) | |
| 2. | Təmsil etdiyi ali məktəb və ya elmi müəssisə, vəzifə | |
| 3. | Materialın mövzusu | |
| 4. | Məqalə və ya tezis | |
| 5. | İştirak forması (əyani və ya videobağlantı) | |
| 6. | Əlaqə ( və videobağlantı) üçün işlək telefon nömrəsi | |
| 7. | Elektron ünvan (e-mail) | |
| 8. | *Gənc tədqiqatçılar üçün əlavə:*<br>Magistrant və ya doktorant (dissertant) | |
| 9. | İxtisas (ixtisaslaşma), kurs və ya proqram, hazırlıq ili | |
| 10. | Elmi rəhbər<br>(ad, soyad, elmi dərəcə və elmi ad) | |